# İşğaldan azad torpaqlarımıza şəhidlik zirvəsindən baxan Azad...

**Birinci Qarabağ savaşında Vətən-torpaq uğrunda canını fəda edən qeyrətli oğullardan biri də Azad Bayramovdur.**

İgidliyi və cəsarəti ilə qəlblərdə özünə əbədi abidə ucaldan bu Vətən sevdalısı 28 may 1973-cu il tarixində Lerik rayonunun Siyov kəndində müəllim ailəsində dünyaya göz açıb. 1980-cı ildə M.Qafarov adına Siyov kənd tam orta məktəbinin birinci sinfinə gedib, 1990-ci ildə həmin məktəbin 10-cu sinfini bitirib. Dərslərində "əla" qiymət alıb, istedadı, nümunəvi tərbiyəsi, vətənpərvərliyi ona böyük sevgi qazandırıb. El-obada hamı Azadın Vətəninə ləyaqətli övlad olacağına inanıb.

Qəlbi Vətən, xalq üçün şirin-şəkər arzularla dolu olan, gəncliyin ən ülvi duyğular dövrünə qədəm qoyan Azadın ali təhsil almağına yağı düşmənin Qarabağımıza ədalətsiz təcavüzü imkan verməyib. Lerik Rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Azad döyüş bölgəsində Vətən torpaqlarının keşiyini çəkib. Azğın dığalara



qarşı döyüş yolu Füzulidən başlayib. Sinəsini irəli verib müharibə meydanına girəndə düşməni məğlub edən günədək vuruşacağına and içib. İgid əsgər Füzuli uğrunda gedən döyüşlərdə mərdlik göstərərək dığalara ağır zərbələr vurub, bir-birindən çətin döyüş əməliyyatlarında fərqlənib.

14 avqust 1993-cu ildə isə Qizilqaya yüksəkliyində əsgər yoldaşlari ilə bərabər ermənilər tərəfindən 3-4 gün mühasirədə qalmaqla ağır döyüşdən sonra orada itkin düşüb.1997-ci ildə Lerik Rayon Məhkəməsi tərəfindən Azad Muxtar oğlu Bayramova şəhid statusu verilib. Vətən, torpaq uğrunda şəhid olanlar ölmür.

Azad Bayramov cismən aramızda olmasa da, göstərdiyi qəhrəmanlıqla mənən milyonların ürəyində yaşayır, hər an böyük məhəbbətlə ehtiramla xatırlanır. Doğma Siyov kəndində onun adına bulaq abidə kompleksi ucalır. Bu saf sulu bulaqdan içənlər Azadla qürur duyurlar.

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

Bakı Xəbər.- 2025.- 29 avqust (№ 153).- S.15.